UOT 32.; 323.; 324.; 329
DOI: https://doi.org/10.30546/25194011.2026.201.2.4.5023

# İŞİD-in TRANSMİLLİ TƏŞKİLATA ÇEVRİLMƏSİNDƏ ƏCNƏBİ DÖYÜŞÇÜLƏR AMİLİ

**CƏLAL RÖVŞƏN OĞLU ABDULLAYEV**
*Azərbaycan Dillər Universitetinin*
*"Beynəlxalq münasibətlər" ixtisası üzrə doktorantı*
*Rəşid Behbudov küç. 134, Bakı*
*E-mail: calal.abdullayev00@gmail.com*

### XÜLASƏ

Məqalədə İŞİD-in transmilli təşkilata çevrilməsində əcnəbi döyüşçülər amili təhlil edilir. Bu kontekstdə İŞİD-ə qoşulan əcnəbi döyüşçülərin sayı və onun artma dinamikası, həmçinin əcnəbi döyüşçülərin coğrafi mənşəyi araşdırılır. Elmi və digər məlumatlar əsasında göstərilir ki, Suriya və İraqda münaqişə dövründə 44279-dan 52808-ə qədər əcnəbi İŞİD sıralarına qoşulmuşlar və onlar demək olar ki, dünyanın bütün regionlarını təmsil edirdilər.

Qeyd edilir ki, dünyanın müxtəlif ölkələrindən gələn əcnəbi döyüşçülər İŞİD-in hərbi gücünün mühüm hissəsini təşkil edirdi, onlar təkcə təşkilatın döyüş qabiliyyətini deyil, həm də onun qlobal təsirini genişləndirirdi.

Vurğulanır ki, əcnəbi döyüşçülər yalnız say baxımından deyil, həm də döyüş təcrübələri, strategiya bilikləri və ideoloji fanatizmləri ilə İŞİD-in güclənməsinə ciddi töhfə vermişlər. Əcnəbi döyüşçülərin İŞİD-in döyüş strategiyalarına və hərbi əməliyyatlarına verdiyi töhfələr müxtəlif aspektlərdə özlərini göstərmişdilər. Belə ki, İŞİD-ə qoşulan əcnəbi döyüşçülərin bir qismi əvvəllər digər münaqişələrdə iştirak etmiş, yüksək döyüş təcrübəsinə malik yaraqlı-terrorçular idi.

Nəticə çıxarılır ki, əcnəbi döyüşçülər İŞİD-in hərbi gücünün artmasında, hərbi uğurlarında xüsusi rol oynmışlar, o cümlədən İŞİD-in qlobal səviyyədə imicini formalaşdırmaqda böyük rol oynamış və transmilli təşkilata çevrilməsini şərtləndirən əsas amillərdən olmuşdur.

**Açar sözlər:** *İŞİD, əcnəbi döyüşçülər, transmilli terror təşkilatı, İraq, Suriya.*

### Giriş

Müxtəlif müharibələrdə əcnəbi yaraqlıların iştirakı qədim zamanlardan mövcud olub. Lakin müasir dövrdə əcnəbi yaraqlıların mövcudluğu sovet qoşunlarının Əfqanıstanı işğal etməsindən sonra İslam dünyasında faktiki olaraq bütün münaqişələrin əsas xüsusiyyətlərindən birinə çevrilib. Əcnəbi yaraqlılar Bosniya, Çeçenistan, Somali və İraqdakı münaqişələrin daimi və əhəmiyyətli atributuna çevriliblər. Onlar həmçinin 11 sentyabr 2001-ci il ABŞ-a terror hücumlarına cavab olaraq terrorizmə qarşı qlobal müharibə məqsədilə ABŞ-nin rəhbərliyi altında koalisiya qüvvələrinin Əfqanıstana hərbi müdaxilə etməsindən sonra da münaqişədə iştirak ediblər. Lakin bu münaqişələrdə iştirak edən əcnəbi yaraqlıların sayı nisbətən az olub və döyüşçülərin ümumi sayının orta hesabla 2-8%-ni təşkil edib (Alisa Fainberg, 2017).

Eyni zamanda sözügedən münaqişələrdə öz din qardaşlarını dəstəkləməyə qərar verən əcnəbi döyüşçülərin coğrafi mənşəyi məhdud olub və onlar əsasən Fars körfəzi ölkələri və Cənub-Şərqi Asiya ölkələrinin vətəndaşları olublar. Üstəlik, yuxarıda qeyd olunan münaqişələrdə əcnəbi döyüşçülər həlledici rol oynamayıb. Bununla bərabər, 1979-1989-cu illərdə Əfqanıstan müharibəsi və əcnəbi döyüşçülərin iştirak etdiyi sonrakı silahlı münaqişələr cihadçılar arasında təcrübə toplanmasına səbəb oldu və radikal islamçı təbliğat tərəfindən də müəyyən ideoloji mövqeləri inkişaf etdirmək və yaymaq üçün istifadə edildi. Bununla belə, Suriya və İraq münaqişələri vəziyyəti tamamilə dəyişdi və cihadçıların sosial mediadan istifadəsi terror tarixində yeni mərhələyə çevrildi – kiberməkan təbliğat materiallarının yayımlandığı, "elektron cihad"ın həyata keçirildiyi, müzakirələrin aparıldığı və dünyanın hər yerindən tərəfdarların cəlb olunduğu məkana çevrildi. Odur ki, İrtaq və Suriya münaqişələri zamanı əcnəbi döyüşçülərin İŞİD-in qısa müddət ərzində transmilli terror şəbəkəsinə çevrilməsində və özünü "xilafət" elan etməsində rolunun tədqiq edilməsi nəzəri və praktiki əhəmiyyət kəsb edir.

### Metodologiya

Tədqiqatın əsas məqsədi İŞİD-in qısa müddət ərzində transmilli terror şəbəkəsinə çevrilməsində, özünü "xilafət" elan etməsində və geniş ərazilər üzərində nəzarəti ələ keçirməsində əcnəbi döyüşçülərin rolunu tədqiq etməkdən ibarətdir. Tədqiqatda əsasən müqayisəli analiz, mənbələrin təhlili və diskurs analiz metodlarından istifadə edilir, tarixi və siyasi təhlil aparılır. Təhlillər zamanı beynəlxalq təşkilatların hesabatları və akademik məqalələr əsas informasiya mənbəyi kimi istifadə olunur, bununla yanaşı, müxtəlif hökumət və qeyri-hökumət təşkilatlarının

hesabatlarından və sahə araşdırmalarından əldə olunan məlumatlar müqayisəli şəkildə təhlil edilir.

### İŞİD-ə qoşulan əcnəbi döyüşçülərin sayı

Əcnəbi döyüşçülərin Suriya münaqişəsinə cəlb edilməsi və iştirakı hələ 2011-ci ildə nəzərə çarpırdı. Lakin onların axını 2012-ci ilin sonu və 2013-cü ilin əvvəlində əhəmiyyətli dərəcədə artmışdı. Bildirilirdi ki, hər ay 1000-dən çox əcnəbi döyüşçü İŞİD-ə qoşulur və qruplaşmanın tərkibində döyüşən əcnəbilərin ümumi sayı 100-ə yaxın ölkədən 25-30 min nəfər təşkil edir. Liviya, Misir, Tunis, Əlcəzair, Mərakeş, İordaniya, Türkiyə, Yəmən, Əfqanıstan, Pakistan, Nigeriya, Mali, Niger və Çaddakı müxtəlif ekstremist qruplardan 15 min yaraqlı İŞİD-ə qoşulmuşdu (Barrett Richard. 2014).

Etnik və mədəni əlaqələrinin olmamasına baxmayaraq Suriya və İraqdakı münaqişədə Argentina, Honduras, Kot-d'Ivur, Kamboca və Cənubi Koreya kimi ölkələrdən əcnəbi döyüşçülər iştirak edirdilər. (Homeland Security Committee, 2015). Dünya ölkələrinin yarısından çoxundan, o cümlədən əhalisi müsəlman çoxluqdan ibarət ölkələrdən və qeyri-müsəlman ölkələrdən Suriya və İraqda hərbi əməliyyatlarda iştirak üçün əcnəbi döyüşçülər gəlirdilər. Bildirilirdi ki, rekrutlar personal tövsiyə məktubu – təzkiyyə ilə təmin edilirdilər və İraq və Suriyaya gəlməmişdən əvvəl qeydiyyatdan keçirdilər. Gələndən sonra yeni rekrutlar digər yeni üzvlərlə birlikdə əvvəlcədən hazırlanmış yaşayış yerlərində yerləşdirilir (Lister Ch., 2014).

ABŞ Konqresinin Milli Təhlükəsizlik Komitəsi (Committee on Homeland Security) qeyd edirdi ki, Suriya və İraqda münaqişələrdə iştirak edən əcnəbi döyüşçülərin sayı 2011-ci ildə 1,000 nəfərdən bir az artıq idi, 2012-ci ildə 3,500 nəfərdən artıq, 2013-cü ildə 8,500-dən çox, 2014-cü ildə 18,000, 2015-ci ildə isə 25,000-dən artıq idi (Homeland Security Committee, 2015). BMT-nin Terrorizmlə Mübarizə İdarəsinin rəhbərinin 28 noyabr 2017-ci ildə verdiyi məlumata əsasən, 110 ölkədən 40 mindən çox əcnəbi döyüşçü Suriya və İraqdakı münaqişələrə qoşulmuşdu (UN Security Council, 2017).

Terrorizm problemləri üzrə tanınmış mütəxəssis Aleks Şmit 2015-ci ildə qeyd edirdi ki, Suriyaya və İraqa gəlmiş 25,000-30,000 əcnəbi döyüşçülərin yarısından azı Başar Əsəd rejimi tərəfindən vuruşurdu. O, eyni zamanda bildirirdi ki, əcnəbi döyüşçülər İŞİD döyüşçülərinin ümumi sayının 40%-ni təşkil edir. Bununla yanaşı, Avropa və digər demokratik Qərb ölkələrindən gəlmiş əcnəbi döyüşçülərin sayının ən azı 5 min nəfər olduğu bildirilirdi. Həmçinin qeyd edilirdi ki, Əsəd rejiminə qarşı vuruşan əcnəbi döyüşçülərin 70%-dən çoxu ərəb və digər müsəlman ölkələrindən gələnlərdir. (Alex P. Schmid, 2015).

London Kral Kollecinin Radikallaşmanın Tədqiqi Beynəlxalq Mərkəzinin (International Centre for the Study of Radicalisation – ICSR) elmi işçiləri Coana Kuk (Joana Cook) və Gina Veyl (Gina Vale) rəsmi, akademik və digər məlumatlar əsasında 2019-cu ildə bildirirdilər ki, Suriya və İraqda münaqişə dövründə 44279-dan 52808-ə qədər əcnəbi İŞİD sıralarına qoşulmuşlar. Onlardan 6797-6902 nəfəri (13-16%) qadınlar, 6173-6577 nəfəri (12-15%) isə valideynləri ilə birlikdə gələn və ya hərbi əməliyyatlar teatrında doğulmuş yetkinlik yaşına çatmayanlardır. Bu məlumatlara əsasən 18852 nəfər Yaxın Şərq və Şimali Afrika ölkələrindən, 7252 – Şərqi Avropa, 5965 – Mərkəzi Asiya, 5904 – Qərbi Avropa, 1010 – Şərqi Asiya, 1063 – Cənubi-Şərqi Asiya, 753 – Amerika, Avstraliya, Yeni Zelandiya və 244 – Afrikanın Saharadan cənubda yerləşən ölkələrindən gəlmişlər (Joana Cook and Gina Vale, 2019: 38).

### İŞİD-ə qoşulmuş əcnəbi döyüşçülərin coğrafi mənşəyi

Yaxın Şərq və Şimali Afrikadan olan əcnəbi döyüşçülər cihadçı qruplara qoşulmaq üçün Suriya və İraqa ilk gələnlər sırasında olub. Riçard Barret 2014-cü ilin noyabrında yazırdı ki, 2011-ci ildən başlayaraq təxminən 15 min əcnəbi İŞİD-ə qoşulub, onların yarıdan çoxu Tunis, Səudiyyə Ərəbistanı, Mərakeş, İordaniya və Türkiyədəndir. (Richard Barrett, 2014: 16)

Bu regiondan olan əcnəbi döyüşçülərin əksəriyyəti 18-29 yaşlı gənclər idi. Onlar əsasən şəhərlərin marginal və depressiv rayonlarından, eləcə də müxtəlif sosial və təhsil səviyyələrinə malik kiçik şəhər və kəndlərdən idilər. Soufan Group-un hesabatına görə, 2015-ci ilin oktyabrına qədər Tunisdən Suriyaya 700 nəfəri qadın olmaqla təxminən 6000, Liviyadan 600, Mərakeşdən 1200 döyüşçü İŞİD-ə qoşulmaq üçün Suriyaya gəlib (The Soufan Group, 2015).

Qeyd edilməlidir ki, Yaxın Şərq və Şimali Afrikadan olan yaraqlıları Suriya və İraqdakı cihadçı qruplara qoşulmağa sövq edən əsas motivlər dini-ideoloji və sosial-iqtisadi səbəblərlə bağlı olub. Yaxın Şərq və Şimali Afrika regionundan, xüsusən də Liviya, Tunis və Səudiyyə Ərəbistanından olan əcnəbi döyüşçülər digər regionlardan olan döyüşçülərdən fərqli olaraq daha çox terrorçu-kamikadze kimi istifadə edilirdi, bu da həmin regiondan olan əcnəbi döyüşçüləri digərlərindən fərqləndirən xüsusiyyətlərdən biri kimi qiymətləndirilə bilər. Digər xüsusiyyətlərdən biri də ondan ibarət idi ki, Yaxın

Şərq və Şimali Afrika ölkələrinin hökumətləri ya əcnəbi döyüşçülərin olmasını görməməzliyə vurur, ya da hətta onları dəstəkləyirdilər. Bununla belə, 2014-cü ildə İŞİD öz nəzarətində olan ərazilərdə "xilafət" elan etdikdən sonra region dövlətləri əcnəbi döyüşçülərə qarşı yeni, daha sərt yanaşma tətbiq etməyə başladılar (Alisa Fainberg, 2017).

Qərbi Avropa və Amerika vətəndaşlarının yüksək səviyyədə iştirakı Suriya və İraq münaqişələrinin fərqli xüsusiyyətindən hesab edilməlidir. Belə ki, Soufan Group-un hesabatına görə, 2015-ci ilin dekabrında Qərbi Avropa ölkələrindən Suriya münaqişəsində 5 mindən çox döyüşçü iştirak edirdi. Onların 3,700 nəfəri Avropa İttifaqının dörd ölkəsindən gəlmişdi. Qərbi Avropa ölkələrindən olan əcnəbi döyüşçülərin 1,800 nəfəri Fransadan, 760 nəfəri Böyük Britaniyadan, 760 nəfəri Almaniyadan və 470 nəfəri isə Belçikadan gəlmişdi (The Soufan Group, 2015).

Qərbi Avropadan gələn əcnəbi döyüşçülərin əhəmiyyətli artımı ilə müqayisədə Şimali və Cənubi Amerikadan gələn əcnəbi döyüşçülərin axını nisbətən sabit qalırdı və xeyli az idi. 2015-ci ilin sentyabr ayına olan məlumata görə, ümumilikdə 250 amerikalı Suriyaya getməyə cəhd etmişdi və yalnız 150 nəfərə yaxını buna nail olmuşdu. 2015-ci ilin oktyabrında Kanada səlahiyyətliləri təxminən 130 kanadalının Suriyaya getdiyini təxmin edirdi. Cənubi Amerikanın bəzi ölkələrindən, o cümlədən Argentina və Braziliyadan yaraqlıların olması barədə məlumatlar var idi, lakin onların sayı az idi. (The Soufan Group, 2015: 18).

Ümumiyyətlə, Suriya münaqişəsində iştirak etmək üçün Qərb ölkələrindən gələn əcnəbi döyüşçülərin heç bir döyüş təcrübəsi yox idi. Onların əksəriyyəti 18-29 yaş arası, orta yaş həddi 25 olan gənclər idi. Onların arasında əhəmiyyətli bir hissəsi (təxminən 17%) qadınlar, həmçinin ailələri ilə birlikdə gəlmiş gənclər də var idi. Qərb ölkələrindən olan əcnəbi döyüşçülərin dini mənsubiyyətləri çox müxtəlif idi. Onlar əsasən müsəlman mühacirlərin ikinci və üçüncü nəslinin törəmələri idilər və onların sırasına bəzi müsəlmanlığı təzə qəbul edənlər də daxil idi. Qərb ölkələrindən olan əcnəbi döyüşçülərin əhəmiyyətli hissəsinin motivləri müxtəlif olub və ideoloji, dini, humanitar və şəxsi xarakter daşıyırdı. Ən əsası isə, Yaxın Şərq və Şimali Afrikadan olan əcnəbi döyüşçülərdən fərqli olaraq, Qərb ölkələrindən olan döyüşçülər öz iqtisadi statuslarını artırmaq məqsədi güdmürdülər.

Rusiya prezidenti Vladimir Putinin 2017-ci ilin fevralında Şimal Donanmasının zabitləri ilə görüşü zamanı verdiyi açıqlamaya görə, Suriyada cihadçıların tərəfində Rusiya və MDB pasportlarına malik 9 mindən çox yaraqlı döyüşürdü. Prezident Putinin qeyd etmişdi ki, onların təxminən 4 min nəfəri Rusiya, 5 min nəfəri isə MDB ölkələrinin vətəndaşları olub. (Путин оценил.., 2017)

Alisa Fainberqin məlumatına görə, 2013-2015-ci illər arasında 3,000-4,000 Rusiya vətəndaşı İŞİD və digər cihadçı qruplaşmalara qoşulmuşdu. Rusiyadan İraq və Suriyaya gələn əcnəbi döyüşçülər monolit qruplaşmanın üzvləri deyildilər. Onlar etnik və dini mənşələrinə görə ayrı-ayrı qruplara birləşmişdilər: çeçenlər, dağıstanlılar, digər Şimali Qafqaz xalqlarının nümayəndələri, başqırdlar və tatarlar, etnik ruslar və s. (Alisa Fainberg, 2017). Beynəlxalq Böhran Qrupu Rusiyadan gəlmiş əcnəbi döyüşçülər arasında Mərkəzi Asiya ölkələrindən olan əmək miqrantlarının da olduğunu bildirirdi. Onlar təcrid olunmuş, çox vaxt qeyri-qanuni miqrantlar kimi az maaşlı və təhlükəli işlərdə çalışaraq dində təsəlli, özünü tanımaq və insan birliyi axtarırdılar. (International Crisis Group. 2015).

Çeçenlər İŞİD və digər cihadçı qruplaşmaların tərkibində Suriyada döyüşlərdə iştirak edən Rusiya vətəndaşlarının əksəriyyətini təşkil edirdi. Onların sosial mənşəyi müxtəlif idi, lakin əksəriyyəti kiçik şəhərlərdən və ucqar kəndlərdən, eləcə də xaricdəki diasporalardan gəlmişdilər. Çeçen döyüşçülər əsasən İŞİD və "Cəbhət ən-Nusra"ya qoşulmuşdular və ya "Ceyş əl-Muhacirin vəl-Ənsar" (Jaish al-Muhajireen wal-Ansar) kimi müstəqil qruplar yaratmışdılar. Eyni zamanda, bir çox digər yaraqlılardan fərqli olaraq, çeçenlərin əhəmiyyətli bir hissəsi iki çeçen müharibəsində qazandıqları döyüş təcrübəsinə malik idi və buna görə yüksək qiymətləndirilirdilər. Xüsusilə, Abu Ömər əl-Şişani (Tarxan Batiraşvili) "Ceyş əl-Muhacirin vəl-Ənsar"dan ayrıldıqdan sonra İŞİD-in "hərbi naziri" olmuşdu və 2016-cı ilin iyulunda ölümünə qədər hərbi komandir vəzifəsində çalışmışdı (Alisa Fainberg, 2017).

Mərkəzi Asiya ölkələrinin (Qazaxıstan, Qırğızıstan, Tacikistan, Türkmənistan və Özbəkistan) vətəndaşları 2012-ci ildən Suriya və İraqdakı münaqişələrdə iştirak etmək üçün Yaxın Şərqə getməyə başlamışdılar. Alisa Fainberqin təqdim etdiyi hesablamalara görə, 2013-2015-ci illərdə Mərkəzi Asiya ölkələrindən Suriyaya gələn əcnəbi döyüşçülərin sayı 4,000-4,500 nəfər arasında dəyişirdi (Alisa Fainberg, 2017). Joana Cook və Gina Veyl tərəfindən 2019-cu ilin iyun ayında dərc edilmiş araşdırmaya əsasən, Suriya və İraqda İŞİD-ə qoşulmuş Mərkəzi Asiya ölkələrindən olan əcnəbi döyüşçülərin ümumi sayı 5,758-7,099 nəfər təşkil edirdi. Bildirilirdi

ki, onlardan 620 nəfəri qadın, 1,164-1,274 nəfəri isə valideynləri ilə gəlmiş və ya hərbi əməliyyat şəraitində doğulan azyaşlı uşaqlardır (Joana Cook and Gina Vale, 2019: 36).

Araşdırmalara görə, Suriya və İraq münaqişələrində iştirak etmək üçün Balkan ölkələrindən gələn əcnəbi döyüşçülərin sayı cüzi olmuşdur. Soufan Group-un hesabatına görə, 2015-ci ildə Balkanlardan Suriyaya azı 875 döyüşçü gəlmişdi və onlardan 800-ə yaxını Qərbi Balkan ölkələri olan Albaniya, Bosniya, Kosovo və Makedoniya vətəndaşları olublar. Balkanlardan gələn yaraqlılar İŞİD-ə birləşərək, "Balkan batalyonu" formalaşdırmışdılar (The Soufan Group, 2015).

Soufan Group-un 2015-ci ilin dekabr hesabatına əsasən, Suriyada Cənub-Şərqi Asiya ölkələrinin ən azı 600 sakini döyüşüb (The Soufan Group, 2015). Lakin analitik Coşua Kurlantzik (Joshua Kurlantzick) qeyd edirdi ki, Cənubi-Şərqi Asiyanın bəzi kəşfiyyat təşkilatları bu regiondan İŞİD ərazisinə getmiş sakinlərin ümumi sayını 1,200-1,800 nəfər olduğunu bildirirlər (Joshua Kurlantzick, 2016).

Bildirilirdi ki, onların əksəriyyəti indoneziyalılardır, malaziyalılar təxminən 100 nəfərdir, bəziləri Sinqapurdan və, ola bilsin ki, Filippindən gəliblər. Lakin Suriyaya gələnlərin heç də hamisi hərbi əməliyyatlarda iştirak etmirdilər. Belə ki, Cənubi-Şərqi Asiyadan Suriyaya gələnlərin təxminən 40%-ni qadınlar və 15 yaşına çatmamış uğuqlar təşkil edirdi. Bu qadınlar və uşaqlar "müqəddəs" müharibədə kişilərin səylərini dəstəkləmək və həmçinin "təmiz" "İslam Dövlətində" yaşamaq üçün onların ardınca Suriyaya gəlmişdilər. Zənnimizcə, Cənubi-Şərqi Asiyadan Suriya və İraqa gəlmiş əcnəbi yaraqlıların sayının digər regionlardan olan yaraqlıların sayından az olması bu regionun Yaxın Şərqdən coğrafi baxımdan çox uzaq olması və ona görə də İŞİD-in təbliğatından kənarda qalması ilə bağlıdır.

Göründüyü kimi, İŞİD-ə qoşulan əcnəbi döyüşçülər demək olar ki, dünyanın bütün regionlarını təmsil edirdilər, onlar Yaxın Şərq və Şimali Afrika ölkələrindən, Qərbi və Şərqi Avropa, Mərkəzi, Şərqi və Cənubi-Şərqi Asiya, Amerika, Avstraliya, Yeni Zelandiya və Afrikanın Saharadan cənubda yerləşən ölkələrindən gəlmişdilər.

## Nəticə

Təhlillər göstərir ki, Suriya və İraq münaqişələrinə cəlb olunan əcnəbi döyüşçülərin axını əvvəlki münaqişələrdən əhəmiyyətli dərəcədə fərqlənirdi.

Belə ki, əvvəlki münaqişələrdən fərqli olaraq, Suriya və İraq münaqişələrində iştirak edən əcnəbi yaraqlıların sayı döyüşçülərin ümumi sayının ən azı 15-20%-ni, bəzi tədqiqatlara görə isə 40%-ə qədərini təşkil edirdi. İŞİD-in 2014-cü ildə qısa bir zaman ərzində Suriya və İraq ərazilərində böyük əraziləri zəbt etməsi və özünü "xilafət" elan etməsi ilə gücünün zirvə nöqtəsinə çatmasını şərtləndirən əsas amillərdən biri əcnəbi döyüşçülərin rolu idi.

Əgər əvvəlki münaqişələrdə əcnəbi döyüşçülər müstəsna olaraq müsəlmanlar idisə, artıq qeyri-müsəlmanlar da, həm sünni, həm də şiə döyüşçüləri Suriya münaqişəsində iştirak edirdi. Suriya və İraq münaqişələrinə əcnəbi döyüşçülərin cəlb olunması ilə əvvəlki münaqişələr arasında mühüm fərq Qərbi Avropa və Amerika ölkələrindən olan vətəndaşların əhəmiyyətli iştirakıdır. Onların çoxu müsəlman əsilli olmayan və əvvəlki münaqişələrdə iştirak etməyən yeniyetmələr idi.

Qeyd edilməlidir ki, dünyanın müxtəlif ölkələrindən gələn əcnəbi döyüşçülər İŞİD-in hərbi gücünün mühüm hissəsini təşkil edirdi. Əcnəbi döyüşçülər təkcə təşkilatın döyüş qabiliyyətini artırmır, həm də onun qlobal təsirini genişləndirirdi. Belə ki, onların böyük əksəriyyəti ideoloji təbliğatın təsiri ilə cəlb olunmuş və xüsusi təlim düşərgələrində hazırlıq keçmişdilər.

Əcnəbi döyüşçülər İŞİD-in transmilli təşkilata çevrilməsinə və yeni üzvlər cəlb etməsinə imkan yaratdı. İŞİD-in hərbi gücünün artmasında, hərbi uğurlarında əcnəbi döyüşçülər xüsusi rol oynamışlar. Onlar yalnız say baxımından deyil, həm də döyüş təcrübələri, strategiya bilikləri və ideoloji fanatizmləri ilə İŞİD-in güclənməsinə ciddi töhfə vermişdilər. Əcnəbi döyüşçülərin İŞİD-in döyüş strategiyalarına və hərbi əməliyyatlarına verdiyi töhvələr müxtəlif aspektlərdə özlərini göstərmişdi. Belə ki, İŞİD-ə qoşulan əcnəbi döyüşçülərin bir qismi əvvəllər digər münaqişələrdə iştirak etmiş, yüksək döyüş təcrübəsinə malik yaraqlı-terrorçular idi. Onlar Əfqanıstan və Pakistanda, Çeçenistan və Şimali Qafqazda, Liviyada və Şimali Afrika ölkələrində münaqişələrdə iştirak etmiş, partizan müharibələrində yüksək bacarıqlara malik idi. Onlar İŞİD-in tərkibində təlim düşərgələrində təlimatçı, ağır silahlardan istifadə etməyi öyrədənlər kimi fəaliyyət göstərirdilər. Bir sıra əcnəbi döyüşçülər peşəkar hərbi keçmişə malik idilər və İŞİD-in döyüş taktikasının işləyib hazırlamış, inkişaf etdirmişdilər, snayper, partizan döyüşü, diversiya əməliyyatları sahəsində ekspert kimi çalışmışdılar.

Beləliklə, əcnəbi döyüşçülər İŞİD-in qlobal səviyyədə imicini formalaşdırmaqda böyük rol oynamış və İŞİD-in transmilli təşkilat kimi qəbul olunmasını şərtləndirən əsas amillərdən olmuşdur.

## ƏDƏBİYYAT SİYAHISI:


1. *Alisa Fainberg. Here We Come: The Evolution of Foreign Fighters' Flow to Syria and Iraq in 2013-2016. International Institute for Counter-Terrorism, Winter 2017, 51 p.// [https://www.ict.org.il/ Article/1954/the-evolution-of-foreign-fighters#gsc.tab=0].*
2. *Barrett Richard. The Islamic State. Soufan Group, New York, November 2014 // [http://soufangroup.com/wp-content/uploads/2014/10/TSG-The-Islamic-State-Nov14.pdf].*
3. *Homeland Security Committee. Final Report of the Task Force on Combating Terrorist and Foreign Fighter Travel, September 2015 // [ https://www.hsdl.org/?abstract&did=787528].*
4. *Lister Ch. Profiling the Islamic State. Doha: Brookings Doha Center; Washington, D.C.: The Brookings Institution, Number 13, November 2014, 57 p.*
5. *UN Security Council. Greater Cooperation Needed to Tackle Danger Posed by Returning Foreign Fighters, Head of Counter Terrorism Office Tells Security Council. 8116th meeting, S/13097, 28 November 2017 // [https://www.un.org/press/en/2017/sc13097.doc.htm].*
6. *Alex P. Schmid. Foreign (Terrorist) Fighter Estimates: Conceptual and Data Issues. ICCT Policy Brief. October 2015 // [https://icct.nl/wp-content/uploads/2015/10/ICCT-Schmid-Foreign-Terrorist-Fighter-Estimates-Conceptual-and-Data-Issues-October20152.pdf].*
7. *Joana Cook and Gina Vale, From Daesh to 'Diaspora' II: The challenges posed by women and minors after the fall of the Caliphate", The CTC Sentinel, July 2019, Vol. 11, Issue, p.30-45 ( p. 38) // [https://ctc.usma.edu/wp-content/uploads/2019/07/CTC-SENTINEL-062019.pdf]*
8. *The Soufan Group. Foreign Fighters. An Updated Assessment of the Flow of Foreign Fighters into Syria and Iraq. New York: December 2015 // [https://wb-iisg.com/wp-content/uploads/bp-attachments/4826/ TSG_ForeignFightersUpflow.pdf].*
9. *Путин оценил численность боевиков из бывшего СССР в Сирии в 9 тысяч //*
10. *[https://www.rbc.ru/politics/23/02/2017/58aee7b79a7947ee4af00978].*
11. *International Crisis Group. Syria Calling: Radicalisation in Central Asia. Policy Briefing. Europe and Central Asia Briefing N°72. Bishkek/Brussels, 20 January 2015 // [https://www.crisisgroup.org/ europe-central-asia/central-asia/syria-calling-radicalisation-central-asia].*
12. *Joshua Kurlantzick, The Rise of ISIS in Southeast Asia, Defence One, February 5, 2016 // [https://www.defenseone.com/ideas/2016/02/rise-isis-southeast-asia/125719/].*


## Роль иностранных боевиков в превращении ИГИЛ в транснациональную организацию


**Джалал Ровшан Абдуллаев**
***Докторант по международным отношениям Азербайджанского Университета Языков***


### РЕЗЮМЕ


В работе анализируется фактор иностранных боевиков в процессе превращения ИГИЛ в транснациональную организацию. В этом контексте рассматривается численность иностранных боевиков, присоединившихся к ИГИЛ, динамика их роста, а также географическое происхождение. На основе научных и иных данных указывается, что в период конфликта в Сирии и Ираке от 44 279 до 52 808 иностранных боевиков вступили в ряды ИГИЛ, представляя практически все регионы мира.

Отмечается, что иностранные боевики, прибывшие из различных стран, составляли значительную часть военной силы ИГИЛ. Они не только усиливали боеспособность организации, но и способствовали расширению её глобального влияния. Подчеркивается, что вклад иностранных боевиков в укрепление ИГИЛ был значителен не только с количественной точки зрения, но и за счёт их боевого опыта, знаний стратегий и идеологического фанатизма.

Влияние иностранных боевиков на боевые стратегии и военные операции ИГИЛ проявлялось в различных аспектах. Некоторые из них ранее участвовали в других конфликтах и были опытными боевиками-террористами.

В заключение делается вывод, что иностранные боевики сыграли важную роль в усилении военной мощи ИГИЛ, его военных успехах, а также в формировании его глобального имиджа и превращении в транснациональную организацию.



**Ключевые слова:** *ИГИЛ, иностранные боевики, транснациональная террористическая организация, Ирак, Сирия.*

## The role of foreign fighters in the transformation of ISIS into a transnational organization

**Jalal Rovshan Abdullayev**
***Doctoral student in International Relations at the Azerbaijan University of Languages***

**SUMMARY**

This study analyzes the role of foreign fighters in the transformation of ISIS into a transnational organization. In this context, it examines the number of foreign fighters who joined ISIS, the dynamics of their increase, and their geographical origins. Based on academic and other sources, it is shown that between 44,279 and 52,808 foreign individuals joined ISIS during the conflicts in Syria and Iraq, representing nearly all regions of the world.

It is noted that foreign fighters from various countries constituted a significant part of ISIS's military power. They contributed not only to the organization's combat capability but also to the expansion of its global influence. It is emphasized that the foreign fighters significantly strengthened ISIS not only in terms of numbers but also through their combat experience, strategic knowledge, and ideological fanaticism.

Their contributions to ISIS's military strategies and operations manifested in various ways. Some foreign fighters had previously participated in other conflicts and were experienced militant-terrorists.

In conclusion, it is asserted that foreign fighters played a crucial role in enhancing ISIS's military strength, achieving its military successes, shaping its global image, and facilitating its evolution into a transnational organization.

**Keywords:** *ISIS, foreign fighters, transnational terrorist organization, Iraq, Syria.*

*Rəyçi: Fəlsəfə elmləri doktoru,*
*professor Əliyev Məmməd Arif oğlu*
*Məqalə redaksiyaya daxil olub: 03.04.2026*
*Çapa qəbul olunub: 12.04.2026*

*The date of the admission of the article to the editorial office: 03.04.2026*
*Accepted for publication: 12.04.2026*